# Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir

## Tərtər rayonunda bələdiyyə seçkilərinin təbliğat kampaniyası uğurla davam edir





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi tərəfindən bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Tərtər bələdiyyəsinə YAP tərəfindən namizədlikləri irəli sürülmüş şəxslər və seçicilərlə görüş-mitinq keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov ölkəmizdə bələdiyyələrin yaranma tarixi, ötən 20 il ərzindəki fəaliyyətləri, dövlətimiz tərəfindən yerli özünüidaəetmə orqanlarına göstərilən dəstək barədə məlumat verib. R.Şabanov dekabrın 23-də bələdiyyə seçkilərinin tam şəffaf və demokratik şəraitdə keçirilməsinə hər cür şərait yaradıldığını bildirib.

YAP Tərtər rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Kərrar Bayramov, Reyhan İsmayılova, bələdiyyə üzvlüyünə namizədlərdən Tünzalə Vəlizadə, Pərvanə Xuduyeva, Fərid Nemətzadə və Orxan Tanrıverdizadə də çıxış edərək bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verilməsi barədə çağırışlar ediblər.

## YAP Səbail rayon təşkilatında qadın seçicilərlə görüş keçirilib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərin qadın seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Səbail rayon təşkilatının Aparat rəhbəri Zəfər Bayramov bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Səbail rayonunda seçicilərlə keçirilmiş çoxsaylı görüşlər haqqında tədbir iştirakçılarına məlumat verib. Z.Bayramov bildirib ki, qadınlar bütün dövrlərdə respublikamızın ictimai-siyasi həyatında fəal iştirak ediblər. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası bu seçkilərdə də ən layiqli partiya fəallarının bələdiyyələrə namizədliyini irəli sürüb. Qadın seçiciləri hər zaman olduğu kimi, bu seçkilərdə də yüksək fəallıq nümayiş etdirməyə dəvət edən Z.Bayramov hər kəsi ən layiqli namizədlər olan YAP namizədlərinə səs verməyə çağırıb.

Çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova deyib ki, Azərbaycan qadınları bu gün cəmiyyətin ictimai-siyasi həyatının bütün sahələrində çox fəaldır, say etibarilə də ciddi elektorat təşkil edirlər. Bələdiyyə seçkilərində namizədlərin sırasında qadınların xüsusi çəkisinin ildən-ilə yüksəldiyini xüsusi qeyd edən deputat diqqətə çatdırıb ki, ölkəmizdə dövlət qadın siyasəti uğurla həyata keçirilir, qadınlar respublikada, eləcə də Səbail rayonunda gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə yaxından iştirak edirlər. Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərə seçkilərdə uğurlar arzu edən S.Qafarova bütün rayon sakinlərini seçki günündə fəal olmağa və YAP namizədlərini dəstəkləməyə çağırıb.

Tədbirdə YAP Səbail rayon Qadınlar Şurasının sədri Təranə Kərimova və YAP Səbail rayon təşkilatının sədr müavini Mehman İsmayılov çıxış edərək qeyd ediblər ki, bələdiyyə seçkilərində qadın namizədlər kifayət qədər çoxdur. Bu amil cəmiyyətdə qadınların rolunun artmasının göstəricisidir.

Görüşdə Səbail, Badamdar və Bibiheybət bələdiyyələrinə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş qadın namizədlərdən Sədaqət Həsənova, Xatirə Əliyeva, Nərgiz Ələkbərova və Xədicə Həsənova çıxış ediblər. Qeyd olunub ki, bələdiyyə seçkilərində namizədlərin sırasında qadınların və gənclərin çoxluq təşkil etməsi bələdiyyə institutunun inkişafında mühüm rol oynayacaq. Seçki platformaları və görəcəkləri işlər haqqında seçicilərə ətraflı məlumat verən qadın namizədlər seçiciləri ictimai-siyasi proseslərdə daha da fəal olmağa və seçki günü həmrəylik nümayiş etdirərək Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən qadın seçicilər seçki prosesində fəal iştirak edəcəklərini və xalqın partiyası olan YAP-ın namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

## qhtxeber.az saytının 10 illik yubileyi qeyd olunub

*Tədbirdə "SƏLİS Jurnalist" yazı müsabiqəsinin qalibləri mükafatlandırılıblar*




Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qhtxeber.az saytının 10 illik yubileyi münasibətilə dekabrın 18-də tədbir keçirilib. Tədbirdə, həmçinin Şuranın elan etdiyi "SƏLİS Jurnalist" yazı müsabiqəsinin qalibləri mükafatlandırılıblar.

AZƏRTAC xəbər verir ki, qhtxeber.az saytının baş redaktoru Sənan Nəcəfov saytın fəaliyyəti ilə bağlı məlumat verib.

Milli Məclisin deputatı, Şuranın sədri Azay Quliyev yubiley münasibətilə təbriklərini çatdıraraq bildirib ki, qhtxeber.az saytı işinin öhdəsindən layiqincə gəlib: **"Saytının yaranmasından ötən on ildə qarşıya qoyulan vəzifələrin öhdəsindən bacardığımız qədər gəlməyə çalışdıq. Düşünürəm ki, kollektiv bu missiyanı şərəflə yerinə yetirib. Qarşıda hələ görüləcək işlər çoxdur".**



A.Quliyev "SƏLİS Jurnalist" yazı müsabiqəsinin qaliblərini təbrik edərək bildirib ki, müsabiqə 3 mövzu - "Ölkədə aparılan iqtisadi, sosial və kadr islahatları", "İctimai nəzarətin effektiv və milli maraqların qorunması" və "QHT-lərlə dövlət qurumları arasında əməkdaşlığa dair yeni imkanlar və perspektivlər" üzrə keçirilib. Müsabiqəyə təqdim olunan 51 yazı arasından 9-u münsiflər heyəti tərəfindən mükafata layiq görülüb.

Jurnalist yazılarının qiymətləndirilməsi üzrə münsiflər heyətinin üzvləri Xalq şairi Sabir Rüstəmxanlı, Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu, "APA Group"un rəhbəri Vüsalə Mahirqızı və "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid olublar.



Sabir Rüstəmxanlı və Rauf Arifoğlu yazıların ədalətli seçim əsasında qiymətləndirildiyini bildiriblər.

Sonda qaliblər təltif ediliblər.

## Pakistanda beynəlxalq konfransda Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündəki rolundan danışılıb





Pakistanın paytaxtı İslamabadda bu ölkənin Qlobal və Strateji Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə "Bir kəmər, bir yol" tərəfdaşlarının regional media bağlılığı mövzusunda beynəlxalq konfrans keçirilib.

Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü iri əməkdaşlıq təşəbbüsü olan "Bir kəmər, bir yol"un xalqlar arasında təmasların daha da yaxınlaşdırılmasındakı əhəmiyyətinə, bu işdə medianın vacib roluna dair müzakirələr aparmaq məqsədilə təşkil olunan konfransda Azərbaycan, Çin, Özbəkistan, Belarus, İran, Qırğızıstan, Tacikistan, Şri-Lanka, Maldivdən olan nümayəndələr iştirak ediblər.

Pakistanın Xarici İşlər, İnformasiya və Yayım nazirliklərinin məsul şəxslərinin, nüfuzlu politoloqların, tədqiqatçıların, alimlərin, diplomatların, yerli aparıcı kütləvi informasiya vasitələri rəhbərlərinin qatıldıqları tədbirin açılış mərasimində Pakistan Baş nazirinin informasiya və yayım üzrə köməkçisi xanım Firdövs Aşiq Avan "Bir kəmər, bir yol" təşəbbüsünün region ölkələri üçün yaratdığı əməkdaşlıq imkanlarından danışıb.

Konfransda əsas məruzəçilərdən biri kimi çıxış edən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) xüsusi müxbiri Şahin Cəfərov Avrasiyadakı tarixi ticarət yollarının üzərində, Qərbi Asiya ilə Şərqi Avropanın qovuşduğu məkanda yerləşən Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə oynadığı roldan danışıb. Bildirib ki, Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən biridir. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə dövlət səfəri zamanı iki ölkə arasında "Bir kəmər, bir yol"un tərkib hissəsi olan İpək Yolu İqtisadi Kəmərinin birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Cari ilin aprelində Pekində keçirilmiş 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda çıxış edən dövlətimizin başçısı Azərbaycanın dəstəyini və təşəbbüs çərçivəsində əməkdaşlığı genişləndirməyə hazır olduğunu bir daha bəyan edib. Qeyd olunub ki, Azərbaycan coğrafi mövqeyi və iqtisadi potensialı, o cümlədən son illər müasirləşən və inkişaf edən nəqliyyat-logistika infrastrukturu ilə strategiyanın həyata keçməsində vacib ölkə kimi qiymətləndirilir. Bu xüsusda Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Ələtdəki yeni dəniz ticarət limanı da daxil olmaqla Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində yüklərin daha qısa zamanda və etibarlı daşınmasını təmin edir. Bundan başqa, ölkədəki 6 beynəlxalq hava limanı, Abşeron Logistika Mərkəzi, Xəzər dənizindəki ən iri yük donanması, müasirləşən avtomobil yolları da ölkəmizin beynəlxalq yükdaşımalardakı əlverişli imkanlarını daha da artırıb.

Ş.Cəfərov Azərbaycan mediasının tarixi və inkişaf mərhələləri barədə məlumat verib, hazırda ölkənin aparıcı kütləvi informasiya vasitələrinin, o cümlədən gələn il yaranmasının 100 ili tamam olacaq AZƏRTAC-ın Azərbaycanın "Bir kəmər, bir yol" üzrə əməkdaşlığını diqqətdə saxladığını bildirib. Qeyd edib ki, AZƏRTAC həm Asiya, həm də Avropa xəbər agentlikləri alyansında təmsil olunan, habelə regional alyansların yaradılmasında fəal iştirak edən nadir agentliklərdən biridir. AZƏRTAC 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresinə, habelə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) uğurla sədrlik edib.

Bundan başqa, AZƏRTAC Çinin Sinxua agentliyinin "Bir kəmər, bir yol" ölkələri haqqında daha çevik informasiya mübadiləsinin təmin olunmasına dair təşəbbüsü olan "Bir kəmər, bir yol" İqtisadi Tərəfdaşlıq Platformasının təsisçilərindən biridir. Bu platforma vasitəsilə AZƏRTAC-ın ölkəmizin iqtisadi inkişafı, əlverişli biznes, sərmayə mühiti və mövzu ilə bağlı digər xəbərləri platformada təmsil olunan KİV-lərə, Çinin müvafiq tədqiqat mərkəzlərinə, biznes assosiasiyalarına ötürülür.

Qeyd olunub ki, AZƏRTAC-ın saytının Çin dili versiyasının fəaliyyəti, Sinxua, "China Daily" qəzeti və Çinin digər nüfuzlu KİV-ləri ilə səmərəli əməkdaşlığı sayəsində Çin informasiya resurslarında Azərbaycan haqqında, ölkəmizin "Bir kəmər, bir yol" strategiyasında iştirakı barədə xəbərlərin sayında artım müşahidə olunur. Misal üçün, Çinin "Jiannan Chun"s" internet araşdırma təşkilatının hesabatına əsasən, 2018-ci ilin dekabr ayında Çin internet məkanında "Bir kəmər, bir yol" mövzusunda haqqında ən çox material tapılan ölkələrin siyahısına Azərbaycan başçılıq edib.

Konfransda digər ölkələrin nümayəndələri də çıxış edib, mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

Konfransda iştirak etmək üçün Pakistanda səfərdə olan xarici qonaqlar ölkənin Xarici İşlər, İnformasiya və Yayım nazirliklərində, "Çin-Pakistan İqtisadi Dəhlizi"nin ofisində, Qlobal və Strateji Tədqiqatlar Mərkəzində görüşlər keçirib, Pakistan və Çinin ortaq layihəsi olan "Dosti channel 98FM" radiostansiyasının fəaliyyəti ilə tanış olublar.